

# “Daha aktiv, qaynayan gənclik görmək istəyirəm”

## “ELS” Müstəqil Araşdırmalar Mərkəzinin rəhbəri İradə Yaqubova: “Bəzən sözü deyirəm, elə demə prosesində fikirləşirəm ki, “ay Allah, mən neylədim”, bunu yumşaq da demək olardı”

**Lalə MUSAQIZI**

**Onun bir yerdə dayandığını görmək mümkün deyil. Daim yeniliklər edir, işləyir, ortaya nəsə qoyur. Kənardan sərt bir insan təsiri bağışlasa da, söhbətləşdikcə, əslində belə olmadığını görürsən. Hərçənd özünü idarəçilikdə avtoritar adlandırır.**

**İradə xanım həm də nümunəvi həyat yoldaşı, anadır. Deyir ki, bəzən qadınlar əvvəldən öz çiyinlərinə bütün ailə yükünü götürürlər və özləri elə bir mühit yaradırlar ki, artıq bir neçə ildən sonra kişilər həmin problemlərin həllinə heç yaxın da düşmək istəmirlər. Çünki bu problemlərin xanımları tərəfindən həll olunmasına alışırlar. Onun fikrincə, bu, qadınların buraxdıqları ən böyük səhvdir. Həmsöhbətimiz ”ELS” Müstəqil Araşdırmalar Mərkəzinin rəhbəri İradə Yaqubovadır. Onunla həm işindən, həm də ailəsindən danışdıq...**

**Qısa arayış: Bakıda doğulub. Neft-Kimya İnstitutunu - indiki Neft Akademiyasını bitirib. Texniki elmlər namizədidir (texnika üzrə fəlsəfə doktoru - L.M.). Ailəlidir, iki övladı, beş nəvəsi var.**

**- İradə xanım, yəqin gənclik dövrünüzdən aktiv olmusunuz...**

- Hələ ali məktəbdə oxuyarkən həm komsomol komitəsinin üzvü, həm də tələbə elmi cəmiyyətinin sədri idim, üstəlik, elmi işlə məşğul idim. O vaxt Leninqrad Politexnik İnstitutunun keçirdiyi konfransda qalib olub, oradan diplom gətirmişəm. Bundan başqa, yazdığım məqaləyə görə, Tallindən də diplomla qayıtmışam. Elmi işimi müdafiə edəndən sonra institutumuzda müəllim kimi işlədim. Eyni zamanda, sorğu mərkəzində koordinator kimi işə dəvət aldım. Beləliklə, 1995-ci ildən sosiologiya ilə məşğul olmağa başladım. O vaxtdan gərgin iş qrafikində çalışmağa öyrəşmişəm.

**- Elmi işlə məşğul olarkən ailə qurmuşdunuz?**

- İnstitutu bitirən kimi ailə qurdum və aspiranturaya daxil olanda oğlumun 40-ı təzə çıxmışdı. İrəli getməyin, uğur qazanmağın üçün yanında sənə dəstək verən insanlar olmalıdır. Atam alim, anam həkim idi. Onlar həmişə təhsilə önəm verirdilər. Rəhmətlik atam deyərdi ki, sənin əlindən alınmayan yeganə şey biliklərindir. Həmişə evdə bu sözləri eşitmişəm: yeməyini ye, dərsini elə. Heç vaxt deməyiblər ki, dincəl, yaxud başqa bir şey elə. Gecə saat birə qədər də dərs etsəydim, deyəcəkdilər ki, yəqin, nəsə öyrənməlisən. Gözümü açıb belə görmüşəm. Mənim aspiranturaya daxil olmağımda öz ailəmlə yanaşı, yoldaşımın ailəsinin də dəstəyi olub. İlk növbədə rəhmətlik qayınanam mənə dəstək oldu, dedi ki, mütləq oxumalısan, bu, ailənin gələcəyidir. Bu baxımdan deyirəm ki, dəstək vacibdir. Həm fiziki baxımdan - yeni uşaqlara baxmaqda, ev işlərində, həm də mənəvi baxımdan. Hansısa işi görərkən hiss etməlisən ki, sənə inanan insanlar var. Bu inam sənə güc verir, elə bil qanad açırsan.

**- Deyirlər, uğurlu kişinin arxasında bir qadın var. Uğurlu qadının da arxasında bir kişi varmı?**

- Biz Azərbaycanda yaşayırıq. Mentalitetin, ictimai rəyin həyatımızda önəmli yer tutduğunu dana bilmərik. Həmişə bir addım atanda demirəm ki, ilk növbədə kimin nə deyəcəyini fikirləşirik, lakin mütləq şəkildə onu da fikirləşirik ki, kim nə deyəcək. Bu baxımdan əlbəttə, uğurlu qadının da arxasında həyat yoldaşı və ailəsi durur.

**- İşinizlə bağlı yəqin hərdən evə gec gedirsiniz, hətta ”Exit-poll” keçirilən ərəfədə elə olur ki, 24 saatı iş başında olursunuz. Həyat yoldaşınız buna görə hərdən sizə sizdən şikayət etmir?**

- Bir dəfə evə gəlmişəm, yoldaşım deyir ki, həyat yoldaşımı tapmışam. Televizorda çıxışımı göstəriblər, şəklimi telefonla çəkib mənə göstərir (gülür - L.M.). Ailəm bu rejimi artıq qəbul edib. Özü də nəinki seçkilərlə bağlı, ondan əvvəl də işimlə bağlı evə gec getdiyim vaxtlar olub. Amma həmişə dəstək görmüşəm. Mənim valideynlərimlə birgə yaşayırdıq. Allah atama rəhmət eləsin, anama da can sağlığı versin. Onlar həmin o köməyi göstərirdilər. Xörək məsələsinə, uşaqları qarşılayıb dərsə yola salmağa baxırdılar. Ailədə qarşılıqlı anlaşma var idi. Ailəmdə hər kəs başa düşürdü ki, bunu ailəm üçün edirəm. Buna görə də yoldaşım da, övladlarım da lazım olanda mənə dəstək göstərirdilər.

**- Deyəsən, həyat yoldaşınız sizi çox dəstəkləyir...**

- Bəli. Bilirəm ki, həmişə yoldaşımın nəinki dəstəyinə, onun köməyinə də ümid edə bilərəm. Yəni məni hara, nə vaxt lazımdırsa aparar, nə qədər lazımdırsa gözləyər. Bilirəm ki, hər zaman yoldaşım mənə dayaqdır.

**- Azərbaycan qadınının cəfakeş olduğu deyilir. Sizcə, qadınlarımızın ailədə yükün çoxunu çiyinlərinə götürməsi nə dərəcədə düzgündür?**

- Bəzən qadınlar əvvəldən öz çiyinlərinə bütün ailə yükünü götürürlər və özləri elə bir mühit yaradırlar ki, artıq bir neçə ildən sonra kişilər həmin problemlərin həllinə heç yaxın da düşmək istəmirlər. Çünki bu problemlərin xanımları tərəfindən həll olunmasına alışırlar. İkincisi, onlar artıq ehtiyat edirlər. Çəkinirlər ki, nəyisə etsələr, xanımları onlara deyəcək ki, bunu belə yox, elə etməli idin. Nəticədə belə bir stereotip formalaşır: kişidə arxayınçılıq yaranır ki, onsuz da problem həll olunacaq, onun iştirakına ehtiyac yoxdur. Sonra da qadın şikayətlənməyə başlayır ki, hər bir işi özüm etməyə məcburam, kişinin əlindən iş gəlmir, heç nə etmir və s. Onda sual olunur ki, ay xanım, axı sən ilk gündən onu işə yaxın qoymamısan, onunla hesablaşmamısan, fikrini nəzərə almamısan, həmişə demisən ki, bu, belədir və mən dediyim kimidir. Bu, qadınların buraxdıqları ən böyük səhvdir. Bizim qadınlar əsas silahımızın məhz zəifliyimiz olduğunu unudurlar. Xanımlarımız unutmamalıdır ki, kişi özünü o zaman güclü bilir ki, zəif məxluqun yanında olduğunu hiss etsin və nəyəsə qadir olduğunu göstərə bilsin. Əgər biz həmişə kişini bir tərəfə itələyib, bütün ev işlərini özümüz həll ediriksə və ona əyani surətdə sübut etməyə çalışırıqsa ki, mən bunu sənsiz də edə bilərəm, bu, doğru deyil. Belə qadınlar nəinki həyat yoldaşlarını, övladlarını da problemlərdən uzaq saxlayırlar. Nəticədə ailə quran övladlar fikirləşir ki, o da, heç nə etməməlidir. Çünki atası da heç nə etmir. Deməli, hamısını ana və həyat yoldaşı etməlidir. Bu məsələ qadının xeyrinə deyil. Həm kişinin özünü kişi kimi göstərə bilməsinə, həm də ailədə öz yerini tutmasına maneçilikdir. Digər tərəfdən, övladların da tərbiyəsində problemlər yaradır.

**- Övladlardan söz düşmüşkən bilirəm ki, oğlunuz həkimdir. Bəs qızınız?**

- Qızım Bakı Slavyan Universitetinin tərcüməçilik ixtisasını fərqlənmə diplomu ilə bitirib.

**- Sizi tanıyanlar deyir ki, hər şeyi sıfırdan başlamağı bacaran xanımsınız, harada yaşamağınızdan asılı olmayaraq, özünüzə bir məşğuliyyət tapırsınız...**

- Bəlkə də bu, genetikadan irəli gəlir. Anam indiyə qədər çox fəaldır, atam fədakar, zəhmətkeş bir adam olub, özünü elmə həsr edib. Həm də mən gözümü açandan işləyən ana, ata, qohum-əqraba görmüşəm. Atamın yeganə sözü ”yeməyini ye, dərsini oxu idi”. ”İstirahət et” sözünü eşitməmişəm. Onlar bütün günü işləyirdilər. Anam Tibb İnstitutunda oxuyur, həm də gecələr doğum evində mamaça-ginekoloq kimi fəaliyyət göstərirdi. Üstəlik, iki övlad böyüdürdü. Mən birinci sinfə gedəndə anam instituta qəbul oldu, atam isə institutu bitirdi. Anam ali təhsilini başa vurandan sonra atam elmi işini yazmağa başladı, müdafiə etdi. Yəni, mən gözümü açıb işləyən, inkişafda olan bir ailə görmüşəm. Görməmişəm ki, xanım evə gəlsin və rahat uzanıb televizora baxsın. Başa düşürəm ki, bu, o qədər də düz deyil, lakin mən belə mühitdə böyüyüb formalaşmışam.

Tanıyanlar da bilir ki, mənim üçün ən böyük hədiyyə kitabdır. Evdə iki minə yaxın kitabımız olub. O vaxt hamının evində kitabxana var idi. Qonaqlığa gedəndə orada oxumadığım kitabı axtarıb tapır, hamı oturub yeyib-içəndə, bir küncə çəkilib kitab oxuyurdum. Bu günədək ən sevdiyim məşğuliyyət kitab oxumaqdır.

**- Kənardan çox sərt, səhvləri bağışlamayan bir menecer təsəvvürü bağışlayırsınız. Elədir, yoxsa...**

- Məncə, sərt deyiləm, sadəcə, düz sözü üzə deyənəm. Bəzən deyirəm, deyən kimi, elə demə prosesində fikirləşirəm ki, ”ay Allah, mən neylədim”, bunu yumşaq da demək olardı (gülür - L.M.). Bu, ”acı həqiqət şirin yalandan yaxşıdır” prinsipindən deyil, sadəcə, təbiətimdən irəli gəlir. Amma çalışıram ki, hamıyla elə davranam ki, o insan inciməsin. Çünki sənin üçün incik salınan insandan böyük günah yoxdur. İkincisi, mən kiməm ki, kiminsə bağışlamayım, mənim kiminsə mühakimə etməyə ixtiyarım varmı?

**- İdarəçilikdə demokratsınız, ya avtoritar?**

- Bir tərəfdən avtoritaram. Çünki mənim gördüyüm işi məndən yaxşı bilən yoxdur. Səkkiz ”exit-poll” keçirmişik, mənim elə təcrübəm var ki, ”exit-poll”un iş qrafikini, büdcəsini və s. düşünmədən anındaca tərtib edərəm. Hər hansı bir mərhələdə işin necə və hansı ardıcıllıqla qurulmasını dəqiq bilirəm. Bu zaman artıq sualın verilməsini qəbul etmirəm. Çünki əgər mən bunu deyirəmsə, deməli, bu, belə olmalıdır. Əgər mən nəyisə izah etməyə vaxtımı sərf etsəm, bu, artıq düzgün deyil. İş əsnasında yaxınlaşıb ”filan şeyi belə edək” deyən olanda, dinləyirəm və dəyərli fikridirsə, razılaşıram. Burada mən demokratik üsul tərəfdarıyam. Lakin işin görülməsinə görə məsuliyyət ilk növbədə mənim boynumdadır və cavabdeh məhz mənəm. Buna görə də mən avtoritaram.

**- Daim gənclərimizlə işləyirsiniz. Gənclərimizdə bəyəndiyiniz və bəyənmədiyiniz xüsusiyyətlər.**

- 10-15 il bundan əvvəlki gənclərlə müqayisədə, indikilər daha laqeyddirlər. Gənclərimizdə özlərini inkişaf etdirmək, yeni bir işlə məşğul olmaq niyyətinin, arzusunun azaldığı da məni ağrıdır. Daha aktiv, qaynayan gənclik görmək istəyirəm.